**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**№ 1 (2182) 7 yanvar 2021-ci il**

Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

# Dünyanı heyrətə salan 44 günlük müharibə

*(I yazı)*

**1988-ci ilin fevral ayının 3-dən başlayaraq, Azərbaycan xalqı erməni işğalının qanlı günlərini yaşamağa məcbur oldu. Zorən müharibəyə qatılan xalqımız torpaqlarının, yurd-yuvasının qorunması üçün öncə fərdi halda, sonra kənd-kənd, oba-oba birləşməyə, özünümüdafiə dəstələri yaratmağa başladı. Təbii ki, tarixi proses bu işğalın dərin qatlarının uzaq keçmişinin üzərində cərəyan edirdi. Yəni ötən əsrin ilk illərindən başlayaraq, ermənilər özlərinin torpaq iddiaları ilə artıq dünyanın diqqətini özlərinə çəkə bilmişdi. Onların Azərbaycan ərazisinə köçürülmə tarixi bəlli olsa da, bu gerçəyi pərdələməyə, onu arxa plana atmağa bütün vasitələrlə cəhd edən ermənilər sübut etməyə çalışırdılar ki, Azərbaycanın əzəli torpaqları onlara məxsusdur. Bu kifayət etmirmiş kimi, hələ qardaş Türkiyəyə qarşı torpaq iddiasında olan Ermənistan xəyallarını reallığa çevirmək, dənizdən-dənizə böyük Ermənistan yaratmaq arzusunu xalqının gerçək məqsədi, məramı kimi yazmaqdan, təbliğ etməkdən, dünyaya vəba toxumu kimi yaymaqdan yorulmurdu.**

Məlumdur ki, səpilən bu toxum ermənilərin vücudundakı bir xəstəliyə çevrilmişdi.

Həmin xəstəlik də dünyada, qonşu ölkələrdə müəyyən bir qeyri-sabitlik, bir hakimiyyət zəifliyi olanda üzə çıxırdı. Bax, bu mənada SSRİ-nin bir dövlət kimi Qorbaçov hakimiyyəti dövründə tənəzzülü həmin erməni xəstəliyinə obrazlı desək, yaşıl işıq yandırdı. Real şəraitə istinad edən ermənilər məhz Moskvanın dəstəyi, hamiliyi ilə Azərbaycana qarşı torpaq iddialarını gündəmə gətirdi.

Bütün tarixi prosesləri gözdən keçirdikcə istər-istəməz düşünməli olursan. Bu erməni faşizmi doğrudanmı öz yalanlarına bu qədər inanır və güvənir?!

Doğrudanmı bu xalq özü öz taleyinin sahibi deyil? Axı bəşər tarixi, dünya sivilizasiyası keçdiyi əsrlərr, illəri elmin diliylə, alimlərin, araşdırmaçıların qələmiylə ortaya qoyub. Və dünya alimləri öz elmi əsərlərində tarixin atası sayılan Herodotdan tutmuş üzü bugünkü elm xadimlərinə qədər (onların arasında erməni mənşəli alimlər də var - Ə.M.) göstəriblər ki, Qafqazın, xüsusilə Cənubi Qafqazın köklü xalqları kimlərdi, burada kimlər yaşayır və bu torpaqların sahibi hansı dövlətlər, hansı xanlıqlar olubdu?

44 günlük Böyük Vətən Müharibəsi tarixinə nəzər salsaq, onda bir bəlli həqiqəti mütləq təkrar diqqətə çatdırmaq zərurəti yaranır. Yəni Azərbaycan Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev 27 sentyabr, 2020-ci il tarixdən 10 noyabr 2020-ci il tarixə qədər ölkəmizə üz tutan, prezidentimizdən müsahibə götürüb yayımlayan media mənsublarının hər birinə, xüsusilə Fransanın, Amerikanın, Almaniyanın, İspaniyanın, İtaliyanın, Rusiyanın, eləcə də qardaş Türkiyənin və digər ölkələrin telekanallarından birbaşa bəyan etmişdi ki, ermənilər Azərbaycan ərazisinə çar Rusiyası tərəfindən köçürülüb. Onların bizim ərazimizdə məskunlaşmasının konkret tarixi var və bu da hər kəsə məlumdur.






Özünün müsahibələrində Azərbaycan Prezidenti xüsusi olaraq vurğulamışdı ki, ”Sovet dönəmində Kremlin, xüsusilə SSRİ prezidenti Qorbaçovun atdığı addımlar, Qarabağda yaratdığı xüsusi idarə ermənilərə əl-qol açmaq üçün yaradılmış şərait idi. Bu cür yanaşmaların nəticəsində də Ermənistan silahlanmağa və daha böyük iddialarla çıxış etməyə başladı.

Bu gün Ermənistan təcavüzkar dövlətdir, üstəlik də Ermənistan terrorizmə sponsorluq edən ölkədir”. Bax, bu gerçəklik dünya mediasında, ən nüfuzlu telekanallarda birbaşa səsləndirilib və o da vurğulanıb ki, Azərbaycan xalqı öz qonşularıyla sülh və əmin-amanlıq şəraitində yaşamağı hər zaman istəmiş və bu istiqamətdə də bəzən qarşılıqsız addımlar da atmışdı.

Çox təəssüf ki, bizim sülh istəyimiz düşmənin havadarlarının və siyasi elitasının saymazlığı ilə qarşılanmışdı. Onlar elə düşünmüşdülər ki, Azərbaycan işğal olunmuş torpaqlarını azad etmək gücündə deyil. Lakin 44 günlük Böyük Vətən Müharibəmiz həm ermənilərə, həm onların havadarlarına, bütövlükdə isə bütün dünyaya Azərbaycan xalqının, onun Ordusunun və Ali Baş Komandanının gücünü, iradəsini, qüdrətini göstərdi.

İndi hər kəs Azərbaycan Ordusunun dəmir yumruğunun çəkisindən, zərbəsindən xəbərdardır.

Bu bir gerçəkdir ki, xalqımız 30 il səbrlə, təmkinlə ATƏT-ə, onun Minsk qrupuna, BMT-yə dünyanın qüdrətli dövlətlərinin rəhbərlərinə ümidlə baxmış, onlardan ədalətin bərpa olunmasının, onların haqqın yanında olacağını gözləmişdilər. Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin də dediyi kimi, **”Xalqımızın səbri sonsuz deyildi. Biz gözləyirdik və düşünürdük ki, qarşı tərəf nəhayət, məsələnin sülh yolu ilə həll olunmasına doğru addım atacaq. Amma bütün baş verənlər göstərirdi ki, Ermənistan tərəfi birmənalı şəkildə danışıqlar prosesini süni qaydada davam etdirmək və öz istəklərinə çatmaq yolunu tutublar. Amma biz danışıqlar xatirinə danışıqlar aparmağın əleyhinəyik. Biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik”.**

**(ardı növbəti sayımızda)**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ